*https://doi.org/10.30546/114578.2025.10.4012*

# ÇAĞDAŞ AZƏRBAYCAN POEZİYASINDA MAHİRƏ NAĞIQIZI İMZASI

**Zemfira Abbasova**
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0001-2673-8634*
*zema.abbasova.aliyeva@mail.ru*

**Xülasə**

Mahirə Nağıqızının ədəbi yaradıcılığı müasir Azərbaycan poeziyasının inkişaf dinamikası və poetik meyilləri kontekstində xüsusi diqqətə layiqdir. Onun poeziyası milli-mənəvi dəyərlərə sadiqliyi, vətənə bağlılıq hissini və qadın dünyasının incəliklərini bədii-estetik dəyərlə ifadə etmək baxımından fərqlənir. Şairənin əsərlərində həm klassik poeziya ənənələrinə istinad, həm də müasir düşüncə tərzinin və poetik axtarışların izləri aydın görünür.

Yazılarında xalqın tarixi yaddaşı, mədəni kimliyi və mənəvi bütövlüyü əsas ideya xətti kimi keçir. Mahirə Nağıqızı vətənpərvərlik mövzusuna təkcə coğrafi məkan və siyasi sərhədlər çərçivəsində deyil, həm də insanın torpağına, kökünə və kimliyinə bağlılığı kimi yanaşır. Onun şeirlərində bu hisslər yüksək lirizm, dərin emosional təsir və bədii səmimiyyətlə təqdim olunur.

**Açar sözlər**: Azərbaycan poeziyası, milli-mənəvi dəyərlər, poetik üslub, obrazlılıq, qadın yaradıcılığı.

# MAHIRE NAGHIIZ'S SIGNATURE IN CONTEMPORARY AZERBAIJAN POETRY

**Zemfira Abbasova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Mahira Nağıqızı’s literary work holds a special place within the development dynamics and poetic trends of contemporary Azerbaijani poetry. Her poetry is distinguished by its loyalty to national and spiritual values, expression of patriotism, and subtle depiction of the female world with artistic

and aesthetic value. In her works, both references to classical poetic traditions and traces of modern thinking and poetic experimentation are clearly visible.

Her writings consistently reflect the people's historical memory, cultural identity, and spiritual unity as central thematic lines. Mahirə Nağıqızı approaches the theme of patriotism not only within the framework of geographical space and political boundaries but also as a deep connection to one's land, roots, and identity. These feelings are conveyed in her poems with high lyricism, profound emotional impact, and artistic sincerity.

**Key words:** Azerbaijani poetry, national-spiritual values, poetic style, imagery, female creativity.

## ПОДПИСЬ МАХИРЫ НАГИКЫЗЫ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ

**Земфира Аббасова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Литературное творчество Махиры Нагикызы заслуживает особого внимания в контексте динамики развития и поэтических тенденций современной азербайджанской поэзии. Её поэзия выделяется верностью национально-духовным ценностям, чувством привязанности к родине и тонким отражением женского мира с художественно-эстетической точки зрения. В произведениях поэтессы прослеживаются как отсылки к классическим традициям поэзии, так и следы современного мышления и поэтических поисков.

В её произведениях историческая память народа, культурная идентичность и духовное единство проходят как основная идейная линия. Махира Нагикызы рассматривает тему патриотизма не только в рамках географического пространства и политических границ, но и как глубокую связь человека с землёй, корнями и своей идентичностью. Эти чувства в её стихах передаются с высокой лиричностью, глубокой эмоциональной выразительностью и художественной искренностью.

**Ключевые слова:** азербайджанская поэзия, национально-духовные ценности, поэтический стиль, образность, женское творчество.

**Giriş/İntroduction**

XX əsrin sonları və XXI əsrin əvvəlləri Azərbaycan poeziyası üçün yeni bir inkişaf mərhələsinin başlanğıcı kimi səciyyələndirilə bilər. Bu dövr istər ictimai-siyasi proseslərin, istərsə də estetik düşüncənin dəyişməsi baxımından ədəbi mühitə mühüm təsir göstərmişdir. Müstəqillik dövrünün başlanması, milli kimliyin yenidən dərk olunması, müharibə reallıqları və modern cəmiyyətin doğurduğu sosial psixoloji gərginlik poeziyanın tematik və formal imkanlarını xeyli genişləndirmişdir. Bu mərhələdə poeziya yalnız estetik ifadə forması kimi deyil, həm də ictimai şüurun güzgüsü olaraq çıxış edir.

Məhz belə bir zamanda qadın müəlliflərin poeziyadakı rolu və fəallığı diqqət mərkəzinə çəkilir. Əgər əvvəlki dövrlərdə qadın şairlərin yaradıcılığı daha çox şəxsi duyğular, sevgi və ailə motivləri çərçivəsində dəyərləndirilirdisə, XXI əsrin əvvəllərində bu yanaşma dəyişmiş, qadın müəlliflərin poetik təfəkkürü daha geniş və çoxşaxəli məzmun kəsb etmişdir. Onlar yalnız şəxsi duyğuları deyil, cəmiyyətin ümumi problemlərini, ictimai hadisələrə münasibəti, milli-mənəvi dəyərlərə bağlılığı və çağdaş insanın psixoloji durumunu da poetik müstəviyə gətirmişlər.

Vaqif Yusiflinin bu mövzuda fikirləri bu yeni tendensiyanı daha dəqiq şəkildə ifadə edir: "*Müasir poeziyada qadın müəlliflərin söz dünyası fərdi duyğularla ictimai düşüncələrin bədii vəhdətindən doğur və ədəbi prosesin çoxsəsliliyini təmin edir"*[Yusifli, 2015:87]. Burada "çoxsəslilik" anlayışı xüsusi əhəmiyyət daşıyır. Ədəbiyyatda çoxsəslilik fərqli baxışların, müxtəlif təcrübələrin, müxtəlif mənəvi və sosial təbəqələrin ifadə imkanı tapması deməkdir. Qadın müəlliflərin poeziyaya gətirdikləri yeni baxış bucaqları, fərdi və ictimai təcrübələrin harmonik vəhdəti bu çoxsəsliliyin təminatçılarından biri kimi çıxış edir.

Demək olar ki, Azərbaycan poeziyasında qadın müəlliflərin rolunun artması yalnız gender məsələləri çərçivəsində deyil, bədii-estetik və intelektual səviyyədə də poeziyanın inkişafına ciddi təsir göstərmişdir. Onların iştirakı ilə poeziya daha çox təbəqəli, daha emosional və bir o qədər də analitik bir mahiyyət kəsb etmişdir. Bu isə ədəbi mühitin zənginləşməsi və dinamik bir inkişaf yoluna qədəm qoyması baxımından olduqca mühüm hadisə kimi qiymətləndirilməlidir.

**Mahirə Nağıqızının poetik təfəkküründə mövzu rəngarəngliyi**. Müasir Azərbaycan poeziyasının çoxsəslilik və estetik müxtəliflik baxımından zənginləşdiyi dövrdə Mahirə Nağıqızının yaradıcılığı xüsusi əhəmiyyətə malikdir. Onun poetik təfəkkürü həm mövzu, həm də ifadə vasitələrinin

rəngarəngliyi ilə seçilir və qadın sözünün cəmiyyətin ümumi ədəbi yaddaşındakı yerini möhkəmləndirir. Mahirə Nağıqızının şeirlərində həm fərdi duyğuların dərin psixoloji təhlili, həm də milli-mənəvi dəyərlərin tərənnümü aparıcı xətt kimi keçir. Bu xüsusiyyətlər onun poeziyasını çağdaş Azərbaycan ədəbiyyatının mühüm təmsilçilərindən birinə çevirir.

Şairənin poetik irsində sevgi motivi xüsusi yer tutur. O, bu mövzunu yalnız romantik bir hiss kimi deyil, insanın varoluşunun ayrılmaz və bəzən yaşamaq üçün tək dayaq olan bir hissəsi kimi təqdim edir. Mahirə Nağıqızı üçün sevgi həm fərdi mənada qurtuluş, həm də fəlsəfi mənada yaşamaq iradəsidir. Bu baxımdan, onun "Sənsən" adlı şeiri diqqətəlayiq nümunələrdən biridir:

*Bu səhra dünyamın yuxularının*
*Hər gecə gəzdiyi ormanı sənsən.*
*Yaralı qəlbimin, xəstə canımın,*
*Yeganə davası, dərmanı sənsən* [Nağıqızı, 2020:127].

Bu misralarda sevgi obrazı metaforik və yüksək poetik dillə təqdim olunur. Şairə öz daxili dünyasını "səhra" kimi təsvir edir ki, bu təsvir həm boşluq, həm də tənhalıq anlamı daşıyır. Ancaq bu səhranın yuxularının gəzdiyi "orman" obrazı həmin boşluğun içindəki ümid, yaşama səbəbi və ilham mənbəyidir. Bu kontekstdə sevdiyi insan yalnız bir hissin subyekti deyil, həm də mənəvi dayaq, həyatın mənası və daxili harmoniyanın bərpası vasitəsi kimi çıxış edir.

Şeirdə istifadə olunan "yaralı qəlb", "xəstə can", "dərman" kimi ifadələr isə sevginin şəfalı və sağaldıcı gücünü ön plana çəkir. Bu, Mahirə Nağıqızının poeziyasında tez-tez rast gəlinən bir yanaşmadır: sevgi həm duyğusal, həm də fəlsəfi qurtuluş kimi təcəssüm etdirilir. Sevdiyi insan sadəcə emosional yaxınlıq obyekti deyil, həm də şairənin həyatdakı iztirablarını yüngülləşdirən mənəvi varlıqdır.

Bu cür poetik təqdimat Mahirə Nağıqızının lirikasını həm fərdi, həm də ümumbəşəri səviyyədə dəyərləndirməyə imkan verir. Onun sevgi anlayışı sırf romantik münasibətlər çərçivəsində məhdudlaşmır, əksinə, bu anlayış insanın daxili mənəvi tarazlığına, psixoloji bütövlüyünə və həyatla olan münasibətlərinə dair dərin məna daşıyır.

Mahirə Nağıqızının yaradıcılığında insanın daxili dünyasının təhlili, ruh halının poetik ifadəsi və həyati sınaqlara qarşı münasibəti xüsusi yer tutur. Şairənin "Yığıram" adlı şeiri bu baxımdan xüsusilə diqqətəlayiqdir. Burada

insanın ağrıları, çətinlikləri və qismətinə yazılan dərdləri səbir və daxili mətanətlə qəbul etməsi əsas motiv kimi önə çıxır:

*Dinib dillənmədim ki mən,*
*Pıçıltımnan, lal yığıram.*
*Tanrım, göndərdiyin dərdi*
*Zənn elədim bal, yığıram* [Nağıqızı, 2020:83].

Bu misralarda şairənin həyata və taleyə qarşı dərin fəlsəfi münasibəti aydın şəkildə hiss olunur. O, qarşılaşdığı çətinlikləri və ağrıları “dərd” olaraq deyil, Tanrı tərəfindən göndərilmiş bir “bal” kimi qəbul edir. Bu metaforik yanaşma dərdin yalnız mənfi emosional təcrübə deyil, eyni zamanda mənəvi təkamül və özünü dərk üçün bir vasitə olduğunu göstərir. Burada səssizlik və daxili sükut bir zəiflik deyil, bilə-bilə seçilmiş dözüm və təmkinin ifadəsidir. “Pıçıltımnan, lal yığıram” misrası şairənin daxili səssiz mübarizəsinin və ağrını səbir kasasına yığmasının bədii ifadəsidir.

Bu şeir, həm də Məmməd Cəfərin poeziya haqqında irəli sürdüyü nəzəri yanaşmanın əyani təcəssümüdür: “*Poeziya ictimai duyğunun şəxsi hisslərlə birləşdiyi məqamda ən təsirli gücə çevrilir*” [Cəfər, 2001: 194]. Mahirə Nağıqızının bu poetik nümunəsində də məhz həmin sintez yəni şəxsi hisslər və ictimai duyğular bir araya gələrək dərin emosional və fəlsəfi təsir yaradır.

Bu şeirdəki poetik paralellər və metaforlar – “dərd” və “bal”ın bir yerdə işlənməsi  oxucunu həm təəccübləndirir, həm də düşündürür. Bu, klassik Şərq poeziyasında tez-tez rast gəlinən “şirinləşdirilmiş dərd” anlayışının müasir bir şairin şüurunda necə yenidən interpretasiya olunduğunu göstərir. Mahirə Nağıqızının poetik dünyasında Tanrının göndərdiyi sınaqlar sadəcə ağrılı yox, həm də mənalandırılmış, dəyər qazanmış təcrübələrdir. Bu mövqe həm poetik, həm də fəlsəfi baxımdan yetkin və təmkinli bir şair mövqeyidir.

Bununla yanaşı, “Yığıram” şeiri Mahirə Nağıqızının qadın obrazına yanaşmasının poetik baxımdan nə qədər dərin və çoxqatlı olduğunu da üzə çıxarır. Burada təqdim edilən qadın tipi, yəni səsini ucaldan, etiraz edən və ya dramatik nümayişlə öz acısını ifadə edən biri deyil; əksinə, öz daxili aləmində baş verən ağrıları səssiz bir müdrikliklə yaşayan, yaşadıqlarını Tanrıya qarşı üsyan kimi yox, bir qəbul forması kimi dəyərləndirən bir obrazdır. Bu təsvirdə təvazökarlıq, ruhi güc və təmkin qadın kimliyinin ayrılmaz hissəsi kimi təqdim olunur.

**Mahirə Nağıqızı poeziyasında qadın obrazı.** Mahirə Nağıqızının yaradıcılığında qadın obrazı sadəcə bir poetik element kimi yox, həm də fəlsəfi-

mənəvi dərinliyə malik bir varlıq kimi təqdim olunur. Onun poeziyasında qadınlar passiv, cəmiyyətdə kölgədə qalan və ya yalnız emosional zəifliyi ilə seçilən obrazlar deyil. Əksinə, bu obrazlar daxili zənginliyi, mənəvi bütövlüyü, emosional dərinliyi və dirəniş gücü ilə fərqlənir. Mahirə Nağıqızı qadın qəhrəmanlarını sakitliyin, təmkinin və sükutun içində gizlənmiş bir güc kimi təqdim edir, onlar "susaraq danışan", "sakit dayanaraq dirəniş göstərən" poetik simvollardır.

Bu qadın obrazları öz iç dünyalarında baş verən çırpıntılarla, bəzən isə səssiz əzabları ilə oxucuya bir çox şeyi deyir. Onların ağrısı yalnız fiziki və ya emosional bir zəiflik deyil; əksinə, bu ağrı bir mənəvi sınaq, bir saflıq və təmizlik əlaməti kimi təqdim olunur. Şairənin poeziyasında bu cür yanaşma qadını qurban yox, müqəddəs bir ruhani varlıq kimi yüksəldir.

Bu baxımdan, Mahirə Nağıqızının poeziyası XX əsr Azərbaycan poeziyasında qadın mövzusunun inkişafındakı vacib mərhələlərdən biridir. Onun yaratdığı qadın obrazları Nigar Rəfibəylinin "Neyləyim"… və digər əsərlərindəki güclü qadın simvolları ilə nəzərdə tutulmuş paralellər yaradır. Nigar Rəfibəylinin "Neyləyim"… şeirində isə qadının səssiz hüznü və intizar dolu emosiyaları misralarda belə ifadə olunur:

*Ala gözlüm, səndən ayrı gecələr,*
*Bir il kimi uzun olur neyləyim*?" [Rəfibəyli, 2004:94]

Bu sitatlar Mahirə Nağıqızının poeziyasında "susaraq danışan" qadın obrazına yaxındır; yəni qadının öz dərin ağrıları və daxili fırtınaları səssizlik və poetik sayaçlar vasitəsilə ifadə olunur.

Beləliklə, bu ənənə Azərbaycan qadın poeziyasında bir xətt kimi formalaşıb və Mahirə Nağıqızı həmin xətti həm davam etdirir, həm də onu özünəməxsus lirik və bədii üslubla zənginləşdirir.

Onun poeziyasında qadın yalnız bir ana, bir sevən, bir əzab çəkən obraz deyil, həm də dərin bir mənəviyyat daşıyıcısıdır. Bu baxımdan, Mahirə Nağıqızı üçün qadın obrazı həm tarixi-mədəni yaddaşın, həm də müasir duyğuların poetik daşıyıcısıdır. Onun şeirlərindəki qadınlar həyatla savaşan, amma bu savaşı sükutla edən, içində tufanlar yaşasa da, zahirdə təmkinini qoruyan varlıqlardır.

Bu fikirlər bir daha göstərir ki, Mahirə Nağıqızının təqdim etdiyi qadın obrazı tipik stereotiplərdən uzaqdır. O, cəmiyyətin, ailənin və Tanrının yüklədiyi rolları daşıyan, lakin bütün bu yükə qarşı sakit və mətanətli bir dayanıqlıqla dirənən qadındır. Bu, Azərbaycan poeziyasında təkcə sentimental bir obraz kimi deyil, həm də mənəvi güc simvolu kimi çıxış edir.

**Nəticə/Conclusion**

Mahirə Nağıqızının yaradıcılığı müasir Azərbaycan poeziyasında fərdi poetik səs kimi formalaşmışdır. Onun əsərlərində sevgi, vətənpərvərlik, insanın daxili aləmi və milli-mənəvi dəyərlər ön plana çıxır. Şairənin şeirlərində həm fərdi, həm də universal mövzular əks olunur, klassik ənənələrdən ilhamlanaraq müasir həyatın bədii mənzərəsini yaradır. Əminliklə demək olar ki, Mahirə Nağıqızı Azərbaycan ədəbiyyatında qadın poetikasının inkişafına mühüm töhfə vermişdir.

**ƏDƏBİYYAT/REFERENCES**


1. Cəfər, M. (2001). Ədəbiyyat və həyat. − Bakı: Çinar çap evi. − 360 s.
2. Yusifli, V. (2015). Müasir Azərbaycan poeziyası. − Bakı: "Mütərcim". − 210s.
3. Nağıqızı, M. (2020). Onun daş nağılı. − Bakı: ADPU nəşriyyatı. −411 s.
4. Rəfibəyli N. (2004). Seçilmiş əsərləri. − Bakı: "Şərq-Qərb". − 197 s.



**Məqalə tarixçəsi**

*Daxil olub* *29.09.2025*

*Qədul edilib* *08.10.2025*

*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*

*filologiya üzrə fəlsəfə doktoru, dosent*